Rafiq Yusifoğlu

# YOLLAR



GÖYƏRÇİN

İSSN-0207-4710

Adətən səfərə gedəndə, yola çıxanda üzümüzü göylərə tutub deyirik: -Ya Allah, yolumuzu uğurlu elə! Biz də bu "Yollar" kitabını yazanda həmin sözü təkrarladıq, Tanrıdan dilədik ki, bağlı qalan yolları üzümüzə açsın, doğma torpaqlarımıza, həsrətlə yolumuzu gözləyən yurd-yuvamıza qayıda bilək…



RƏSSAMLAR:

İLQAR
AFƏR





Rafiq Yusifoğlu

# YOLLAR



"Göyərçin"in kitabxanası
Bakı - 2006

# ÖN SÖZ

İnsan həyatını yolsuz təsəvvür etmək qeyri-mümkündür. Yol həyatın, yaşayışın sehrli qan damarını xatırladır. Yol mədəniyyətin ən əsas göstəricilərindən biridir.

Yola vermək. Yol vermək. Yola salmaq(ötürmək), Yol salmaq. Yoluna qoymaq, yoldan çıxarmaq, yola gətirmək... Yol haqqında olan bu sözlərin, ifadələrin hərəsinin öz mənası var... Yolsuz yaşamaq mümkün deyil. Yol insanların lazım olan yerlərə getmək ehtiyacından doğulub.

Çeşmələrin üstünə, bağlara, dağlara, meşələrə, çəmənlərə ilk insan izləri - cığırlar düşüb.

## CIĞIRLAR

Elə bil kəndirdilər,
Sarılıblar dağlara.
Hey uzanıb gedirlər
Çəmənlərə, bağlara.

Çeşmə üstə enirlər,
Zirvələrə çıxırlar.
Ayaqlardan süzülüb
Elə bil ki, cığırlar...

## NECƏ QALACAQ

Dərədən, dağdan keçib
Qonaq gəldik bulağa.
Sərin suyundan içib,
Başladıq oynamağa.

Kəndə qayıdacağıq
Qaranlıq düşən kimi.
Alışacaq göylərdə
Ulduzlar fişəng kimi.

Biz gedəndə bulağın
Ala gözü dolacaq.
Bilmirəm o, meşədə
Təkcə necə qalacaq...

## ÜZÜ YOXUŞA

Cığırla qalxırsan dağa,
Taqətin qalmayıb daha.
İnadından dön, ay uşaq,
Az dırman üzü yoxuşa.
-Çətinsə də dağa qalxmaq,
Çox gözəldi dağdan baxmaq.
Yorulmasın ayaqlarım,
Bükülməsin dizim gərək.
Zirvədən baxmaq xətrinə
Çətinliyə dözüm gərək...

## CIĞIR

Meşədə varsa cığır,
Mütləq harasa çıxır.

## ATIMIN YERİŞİ YORĞA

Atımın yerişi yorğa,
Minirəm, axır çay kimi.
Kəhərimin alnına bax,
Qaşqası yanır ay kimi.
Atımın yalı buluddu,
Atımın yolu ümiddi.
Atımın ayağı səkil,
Altımda quş kimi səkir...

## ATIM, GƏL

Atım gəl, ay atım, gəl!
Qolum, gəl, qanadım, gəl!
Yetir məni yaylağa
Yalmanına yatım gəl.

Atım gəl, ay atım, gəl!
Şeirim gəl, bayatım gəl!
Ötür məni yaylağa,
Muradıma çatım gəl!

Atım gəl, ay atım, gəl!
Dincliyimi atım gəl.
Gətir məni yaylağa,
Büllur şehə batım gəl!

Zaman keçdikcə bu cığırların bəzisi yola çevrilib. İnsanlar əvvəlcə piyada yol gediblər. Sonra heyvanlardan atdan, dəvədən, ulaqdan, fildən istifadə ediblər.

## QULUNUM

Atlarının doğması
Sevindirdi Qulunu.
Yaman çox istəyirdi
O, balaca qulunu.
Heç atın balasından
Çəkməyirdi gözünü.
Sevə-sevə deyirdi
Ona tutub üzünü:
- Böyüyüb at olarsan,
Mən səni nalladaram.
İnanmırsan sözümə,
Heç səni aldadaram?
Başında təzə cilov,
Belində təzə yəhər,
Kəndimizin seyrinə
Çıxarıq səhər səhər.

Sən dördnala çaparsan,
Dırnağından od çıxar.
Heç mənim köhlənimin
Qarşısına at çıxar?
Həmişə dördnala çap,
Yerimə yorta-yorta.
Adamların yanında
Mənə eləmə pərt, ha!
Niyə məndən qaçırsan,
Axı belə şey olmaz.
Sənə ot gətirmişəm,
Qorxma, yaxın gəl bir az.
Məhəl də qoymayırsan
Axı niyə yemə sən?
Ay qulunum, unutma,
Böyüməzsən yeməsən...





## AT BELİNDƏ

At kişnəsə ürək dolar,
At igidə qanad olar.
Altında oynayırsa at,
Dərdini qov, kədəri at.
Cilovu boşalt bir azca,
Qanad açsın alapaça.
Yavaş-yavaş yorğalasın,
Yüyrük kimi yırğalansın.
Güllü biçənəkdən çap keç,
Pöhrəlikdə əyil, çap keç.
Gəl-gəl deyir yaşıl orman,
Meşəni öt, dağa dırman.
Çap get ulu nağıllara,
Qoşul igid oğullara.
Elə et ki, səndən olsun
Ellərin söhbəti, sözü.
Altında köhlənə dönsün
Yaşadığın dünya özü...

## KİŞNƏRTİ ƏVƏZİNƏ

Sahibini yüyrük tək
Yırğalayardı atlar.
Çəkilməmiş yollarla
Yorğalayardı atlar.

At igidin şərəfi,
At igidin qanadı.
Atı sevməyən kəsi
Dost-tanışı qınadı.

Adamlar köhlənləri
Tamam unudub indi.
O atların yerini
Maşınlar tutub indi.

Yadımdadır, bir zaman
Atlar necə kişnərdi.
Tarixdən gələn səsdi
Mənimçün hər kişnərti.

İndi düşməyən yoxdu
Dəmir at həvəsinə.
Siqnallar haray salır
Kişnərti əvəzinə...

## YUXUMDA BİR AĞ AT GÖRDÜM

Yuxumda bir ağ at gördüm,
Yüyürüb gəldi yanıma.
Yalmanına sığal çəkdim,
Od-alov axdı qanıma.

Elə bil nağıldan gəlib,
Nə yaman doğmadı bu at.
Yedəkləyib çəkdim onu,
Sözümdən çıxmadı bu at.

Başını sürtdü əlimə,
Heç mənə şıllaq atmadı.
Ha çalışdımsa, ayağım
Üzəngisinə çatmadı.

Qəmli-qəmli baxdı mənə,
Duydu ki, kefim pozulub.
Birdən gördüm yəhərində
Atamın adı yazılıb.

İgidlər atdan düşəndə
Fərəhləndi, yağı coşdu.
Ağ atların yəhərində
Ataların yeri boşdu.

Ürəyimdən keçənləri
Elə bil ki, duydu bu at.
Övladlarını qınayan
Atamın ruhuydu bu at...





**Daha çox yük daşımaq, daha rahat mənzil başına yetmək istəyi arabaların, faytonların yaranmasına səbəb olub.**

## ARABA

İsinirik qışda biz
Ağacların oduna.
Ay araba, araba,
Get meşəyə oduna.

Tez elə, uşaqların
Yerə salma sözünü.
Əgər əliboş dönsən,
Yandırarıq özünü...

## FAYTON

Atları haraylayan
Qoca faytonçuya bax.
Çuxası vəznəlidir,
Başda buxara papaq.

Saxla faytonu minək,
Bir az da bizi gəzdir.
Keçmişin yadigarı
Hamımıza əzizdir.

Maşınların yanında
Bəzəkli fayton gəlir.
Qırmızıya bürünüb,
Elə bil toydan gəlir.

**Zaman keçdikcə avtomobillər nəsli bir-birini əvəz eləyib. Bu yüksək sürətli maşınların getməsi üçün hamar yollar salmaq zərurəti ortaya çıxıb...**

**Ayaqların təkərlərlə əvəz olunması işləri xeyli asanlaşdırıb.**

## TƏKƏRLƏR

Əgər təkər olmasa,
Maşınlar necə gəzər?
Şini olmayan maşın
Qanadsız quşa bənzər.

Təkərə bax, elə bil
Bir dəyirman daşıdır.
Ancaq dən üyütmür o,
Çiynində yük daşıyır.

Girdədi qoğal kimi,
Yox-yox, ondan iridi.
Fırlanmağa başladı,
Maşınımız yeridi.

Yolları qurşaq kimi
Ortasına doladı.
Birdən üstündən keçər,
Oğlan, bir az dala dur.

Təkərlər fırlandıqca
Sürətlə gedir maşın.
Bütün gün hərlənsə də,
Fırlanmır onun başı...



# AVTOMOBİL YOLLARI

## YOL

Nəhəng buldozerlər nərildəyə-nərildəyə gəldilər. İri ekskavatorların səsi onların səsinə qarışdı. Torpaq diksindi, səksəndi. Polad-polad tiyələr yerə sancıldı. İri-iri çalovlar torpağı-daşı ovuc-ovuc maşınlara doldurdu.

Hündür yerdən qazılanı çökəklərə tökdülər. Hər yeri bərabərləşdirməyə başladılar. Buldozerlər şırım aça-aça dağlara dırmandı. Açılan şırımlar gedib ucqar-ucqar kəndlərə dirəndi.

Torpağın xəstə damarlarını oyurdular, quluncunu sındırırdılar. Elə bil cərrahiyyə əməliyyatı aparırdı buldozerçilər, ekskavatorçular, sürücülər.

Nəhayət, əməliyyatın bir hissəsi başa çatdı. İndi yaranı "dərmanlamaq" və "sarımaq" lazım idi.

Qara, isti asfaltı tənzif kimi oyulan yerə çəkdilər, hamarladılar. Elə bil sınığı gibsə salırdılar.

Xəstə torpaq ağrılara dözdü, hər şeyi unutdu.

Kəndlər arasında gözəl bir yol salındı. Asfaltın üstüylə keçən maşınlar mahnı oxuyurdular. Zəhmətkeş əllərə minnətdarlıq, ehtiram mahnısı.

Torpaq da, yol boyu sıralanan ağaclar da, kollar da bu mahnını dinləyə-dinləyə xəyala dalmışdılar.

### YOLÇƏKƏN

Söyləmə ki, hürküdürəm quşları,
Sındırıram, partladıram daşları.
Yol çəkirəm zirvələrə, dağlara,
Yol çəkirəm çeşmələrə, bağlara.
Kəndimizin hey uzanan yolları
Yurdumuzun qollarıdır, qolları.

### NƏHƏNG ÜTÜ

Yolbasana baxın bir,
Elə bil ki, ütüdü.
Küçənin "paltar"ından
Qırışları itirdi…

### DƏMİR YUMAQLAR

Yolbasan yola çıxıb,
Küçəmiz təzələnir.
Təkərləri elə bil
Yumaqdı, çözələnir.

Aldatmıram mən sizi,
Gəlin baxın, uşaqlar.
Fırlandıqca, açılıb
Küçə olur yumaqlar…

### YOLBASAN

Sən təzə küçəyə
Düşmüsən,
yolbasan.
Mən çatdım
mənzilə,
Sən hələ
yoldasan.
Dağ kimi
ağırsan,
Sən qırın
üstünə
çıxırsan.
Keçdiyin
bu yollar,
Olacaq
haphamar.
Gələcək
Maşınlar,
Siqnallar
dinəcək.
Nahamar
küçəmiz
Güzgüyə
dönəcək.





### TROLLEYBUS

Gördüm baxır təəccüblə,
Suala tutdum oğlanı:
-Söylə görüm trolleybus
Niyə bu xəttə bağlanıb?

O baxdı üzümə tərs-tərs,
Sonra güldü xısın-xısın:
Bağlayıblar, yoldan çıxıb,
Adamları tapdamasın…

### BU YOLLAR, TƏZƏ YOLLAR

Bu yol qalxar Hərtizə,
Gül səpilib hər düzə.
Əyri yüz tələ qursa,
Zaval yoxdu ər düzə.

Bu yol enir Göyyala,
Pərdə çəkib göy yala.
Yada ötən gün düşüb,
Dalmışam xoş xəyala.

Bu yol gedir Fərcana,
Daşlar bənzər mərcana.
Turşsunun hər qurtumu
Şəfa verər hər cana.

Dağlar danış, din deyir,
Təpəmizə gün döyür.
Bəs niyə təzə yolda
Köhnə yolçu təntiyir?

El bir yerə olar cəm,
Xatircəm ol, xatircəm.
Bu yollarla şütüyüb
Keçər nəvəm, nəticəm.

Yoldaşdı bizə yollar,
Yol ömrə bəzək olar.
Bu yerlər ulu yerlər,
Bu yollar təzə yollar…

### DÜŞÜB QALMIŞAM YOLLARDA

Qaçdım şəhər hay-küyündən,
Getdim, getdim uzaqlara.
Sığındım tənha ağaca,
Dırmandım uca dağlara.

Bu adamlar harda qalıb?
Yol çəkir çöllərin gözü.
Titrəyir bulağın səsi,
Dolubdu güllərin gözü.

Tənhalıq qəlbimi sıxdı,
Tutulmuşam yaman dərdə.
Qala bilmədim, darıxdım
Bu ölüb qalmalı yerdə.

Nə dağı aparmaq olur,
Nə dostu gətirmək olur.
Düşüb qalmışam yollarda,
Peşəm köks ötürmək olub.



## MEŞƏYƏ QAYIDAN AĞACLAR

Maşınımız şütüyür
Meşədən evə sarı.
Seyr edirik yol boyu
Düzülən ağacları.

Arxada qalır dağlar,
Gül-çiçəkli yamaclar.
Adama elə gəlir
Geri qaçır ağaclar.

Orxan deyir başını
Söykəyərək şüşəyə:
-Biz Şuşaya dönürük,
Ağaclarsa meşəyə.

## MAŞIN

Gündüzlər gözübağlı
Gəzir şəhəri, kəndi.
Gecə açır onları
Bilmirəm ki, nədəndir.

Elə ki, qaranlığa
Büründü sağı, solu,
Gözlərini açmasa,
Sürücü görməz yolu.

## BU MAŞININ YÜKÜ ÇİÇƏK

- Ay uşaqlar, axın-axın
Maşınıma gəlin yaxın.
- Bu ki bir ovuc çəməndi,
Çiçək bitən bana baxın!
Bu maşının yükü çiçək,
Yavaş-yavaş ipini çək.
Torpaq töküb gül əkmisən,
Bu kuzovdu, yoxsa dibçək?

## DAYANACAQ

Küçənin kənarında
Qondarıblar köşk kimi.
Nə qarda, nə küləkdə
Darda qoymaz heç kimi.

İstilərdə kölgəlik,
Yağışda çətir olar.
Maşınlar gələnəcən
Bizi qoynuna alar.

Əl qaldırma, onsuz da
Avtobus dayanacaq.
Bapbalaca vağzaldı
Sanki hər dayanacaq…

## BALACA SÜRÜCÜ

- Gözəl bala, dur gedək,
Maşınını sür gedək.
- Gəl sən də min, ay ata,
Yorularsan piyada.
- Maşının balacadı,
Bəs ona necə minim?
Sür gedək…
- Yox, sürmürəm,
Qurtarıbdır benzinim.





## AVTOBUS SÜRÜCÜSÜ

O, ömrünün çoxunu
Bu yollarda yaşayır.
Bütün günü hamını
Ora-bura daşıyır.

Sürür, öz maşınında
Hər gün gəzdirir bizi.
Evə piyada dönür
Qarajdan onun özü…

## KƏSİLMƏYƏN ŞÜŞƏ

Yağış yağır, maşınlar
Ötür belədən-belə.
Dayanıb pəncərədən
Baxıram diqqət ilə.

Hamı, hamı tələsir,
Maşınlar süzüb keçir.
Cızıldayan təkərlər
İri şüşəkəsən tək
Asfaltı cızıb keçir.

Yollardan gediş-gəliş
Əskilmir ki, əskilmir.
Ayna tək dümdüz küçə
Kəsilmir ki, kəsilmir.

## SƏSİNİN DALINCA GƏLƏN MAŞIN

O dərədən bir səs gəlir,
Səbrim qalmayıb daha.
Düşüb o səsin dalınca
Bir maşın qalxır dağa.

Tez elə, çıx alaçıqdan,
Yığaq bir dəstə çiçək.
O maşınla yanımıza
İndi atam gələcək…

## BUYNUZLU MAŞIN

Baxıb trolleybusa
Güldü balaca Gülzar.
Hər yana səs saldı ki,
Maşının buynuzu var.



## YOLAYRICI

Əllərimin içində
"Ayaq izləri" boldu.
Ovcum yolayrıcıdı,
Hər barmağım bir yoldu.

Bax bu yol ayrıcında
Neçə səyyh görüşür.
Həmin yollardan keçir
Dünyanın hər bir işi...

## QƏNİ TAXIL DAŞIYIR

Demə ki, Qəni
Danışır nağıl.
Onun maşını
Daşıyır taxıl.
Bunkerdən yerə
Tökülən dəni
Yığıb maşina
Balaca Qəni.

Qoçaq oğlandır,
Ona gülmə sən.
Maşınında var
İki ovuc dən.
Deyir: -Tez olun,
Açın anbarı.
Yerdə qalmasın
Yurdumun varı.

## AVTOBUSDA

Mən avtobusa
Minəndə dünən
Bir ağsaç əmi
Qalxdı yerindən.
Adam böyüyə
Hörmət eləyər.
O əmi məndən
Kiçikdir məgər?

## QƏRİB DAYANACAQLAR

Qonağı olmayanda
Olur dünya dar ona.
Sanki təskinlik verir
Gələn adamlar ona.

Nə yaxşı ki, qalmayır
Tənha dayanacaqlar.
Həmdəmi olmayanlar
Tənha dayanacaqlar.

Üstümüzə qəriblik
Qanadını gəribdi.
Qərib dayanacaqda
Elə hamı qəribdi...





## ÖTÜŞMƏ

Avtobusda əyləşib,
Yol gedirəm atamla.
Pəncərədən küçəyə
Boylanırlar adamlar.

Açıb lampa gözünü
Sıralanmış dirəklər.
Elə bil ki, yol boyu
Şəfəq saçır çiçəklər.

Maşın sanki köhləndi,
Buraxıblar başını.
İşıq arxadan düşcək,
Kölgə keçir maşını.

Sürücümüz ustadı,
Tanıyır hər döngəni.
İşıq öndən düşəndə,
Maşın keçir kölgəni.

İşıqlar gah arxadan,
Gah da ki, öndən düşür.
Avtobusla kölgəsi
Elə bil ki, ötüşür...

## AT, MAŞIN

Yaxın getdin, ya uzaq,
Mindin, minmədin atı, -
Gərək əskik olmasın
Onun arpası, otu.
Maşınsa ayrı şeydi,
Unutmayasan gərək.
O, benzini işlədir
Getdiyi yola görə...

## MAŞININ BAŞI VARMI?

Deyirsən ki, mühərrik
Maşının ürəyidi.
Maşının başı varmı
Bizə de görək indi?
Fikirləş yaxşı-yaxşı.
-Maşının yoxdur başı.
Sürücünün başıyla
İşləyir axı maşın...



# DANIŞAN İŞARƏLƏR

## XƏBƏRDAREDİCİ



Sən məni görən kimi
Xəbərdar ol, xəbərdar.
Öndə şlaqbaumlu
Dəmir yol keçidi var. (1. 1.)



Əgər saya salmasan
Məni, -
Cəzan çoxdu ha!
Dəmir yol keçidində
Şlaqbaum yoxdu ha! (1. 2.)



Məni gördünsə əgər,
Götür-qoy et, hazır ol!
Yolunun qarşısında
Var bir xətli dəmir yol. (1. 3. 1.)



Dost sayıq ol, qabaqda
Dəmir yol xətti çoxdu.
Diqqətsiz sürücüyə
Aramızda yer yoxdu. (1. 3. 2.)



Kəsişəcəkdir yolun
Tramvay xətti ilə.
Bir az süreti azalt,
Dönmək istəmə yelə! (1. 5.)



Mən də sənin qarşında
Dayanmamışam hədər.
Yollar kəsişəcək ha,
Diqqətli ol bir qədər. (1. 6.)



Bu qədər sürət olmaz,
Zülm eləmə maşına.
Dairəvi hərəkət
Çıxacaqdır qarşına. (1. 7.)



Qırmızıya, sarıya,
Yaşıl rəngə yaxşı bax.
Unutma ki, yolunu
İşıq nizamlayacaq. (1. 8.)



Məni saya salmasan,
Sən bəlaya düşərsən.
Birdən körpü ayrılar,
Gedib çaya düşərsən. (1. 9.)



Ya dənizə, ya gölə,
Ya çaya baxacaqsan.
Diqqətli ol, bir azdan
Sahilə çıxacaqsan. (1. 10.)





Mənə laqeyd baxma,
Gözümə dik gözünü.
Təhlükəli döngə var,
Yığışdır ha, özünü! (1. 11.)



Yavaş sür ha, maşını,
Qanadı yoxdur uça!
Təhlükəli döngələr
Calanıbdır uc-uca. (1. 12.)




Qarşıda sərt eniş var,
Çox güvənmə özünə.
Bir yoxla gör əyləcin
Baxacaqmı sözünə? (1. 13)




Önündə sərt yoxuş var,
Bu yol dırmanır dikə.
Sür'ət yığ maşınına,
Özünü cəmlə, dikəl! (1. 14.)



Öndə yol sürüşkəndi, -
Nə olsun ki, deyirsən.
Burda zarafat olmaz,
Xizək sürən deyilsən! (1. 15.)



Yol yaman nahamardı,
Heyfin gəlsin maşına.
Yoxsa, o səndən küsüb,
Oyun açar başına. (1. 16.)



Bir azdan çınqıllı yol
Çıxacaqdır qarşına.
Sayıq olmasan əgər,
Daş yağacaq başına. (1. 17.)



Qabaqda yol daralır,
Ürəyin daralmasın.
Ehtiyatlı ol bir az,
Qanın heç qaralmasın. (1. 18.)



Bəlkə elə qarşına
Dostun, qardaşın gəlir.
Yolda tək deyilsən ha,
Öndən də maşın gəlir. (1. 19.)



Əgər mənim sözümü
Vursan qulaq ardına,
Peşiman olacaqsan.
Piyada keçidinə
Məhəl qoymasan əgər,
Piyada qalacaqsan! (1. 20.)



Gözlərinin önündə
İldırım çaxa bilər.
Yavaş sür ha, yoluna
Uşaqlar çıxa bilər. (1. 21.)



Buludların içində
Həm yağış, həm dolu var.
Ehtiyatlı ol, öndə
Velosiped yolu var. (1. 22.)



Yolunu düzəldəni
Öz işindən eləmə.
Yoxsa, yolsuz qalarsan,
Qəlbin batar ələmə. (1. 23.)



Ayıq ol, yoxsa səni
Köçürərlər mahaldan.
Mal-qaranı vuranın
Axı nə fərqi maldan? (1. 24.)



Maşını yavaşca sür,
Bax yola heyran-heyran.
Birdən çıxar qarşına
Ya maral, ya da ceyran. (1. 25.)



Burda sayıq olmasan,
Dağ sənə gülə bilər.
Maşınının üstünə
Daş qopub gələ bilər. (1. 26.)



Yandan külək əsəcək,
Qəlbin hirslə dolmasın.
Möhkəm tut ki, sükanı
Yel əlindən almasın. (1. 27.)



Birdən yolu düz görüb,
Yerli-yersiz coşarsan, -
Maşınını uçurma,
Uçaqla toqquşarsan! (1. 28.)



Bu sürət kifayətdi,
İşin olmasın qazla.
Qarşıda dar tunel var,
İşıqlarını sazla! (1. 29.)



Gəl özünü yığışdır,
Yol üstündə nida var!
Mənə məhəl qoymasan,
Bil ki, qan var, qada var! (1. 30.)

**Biz döngənin önündə**
**Yolunu gözləyirik.**
**Bizi tanıyanlara**
**Hər şeyi düz deyirik...**



## ÜSTÜNLÜK



Dördkünc sarı nişanam,
Mən baş yolam, baş yolam.
Görməməzlik etsələr,
Haqqım çatır baş yolam! (2. 1.)



Bir azca lovğalandım,
Görün nə günə qaldım?
Üstümdən xət çəkdilər,
Baş yolun sonu oldum. (2. 2.)



İkinci dərəcəli
Yol çıxsa da qarşıma,
Hər şey gözləmək olar,
Çox qaz vermə maşına! (2. 3.1.)



Ya sağdan, ya da soldan
Mənə birləşən yol var.
Üstünlük bizimkidir,
Dostum, sənə uğurlar...
(2.3.2), (2.3.3.)



Sözümdən çıxsan əgər,
Bəla gələr başına.
Yol ver qarşıdan keçən
Tramvaya, maşına. (2. 4.)




Önümdə dayanmasan
Bizi peşman edərsən.
Dost, qaçhaqaç deyil ki,
Dayan, sonra gedərsən... (2. 5.)



Lazım gələrsə, yol ver,
Höcət etmə bir daha.
Hərəkət üstünlüyü
Öndən gələnindir ha! (2. 6.)



Üstünlük səninkidir,
Ayağı əyləcdən çək!
Qarşıdan gələn maşın
Sənə yol versin gərək! (2. 7.)

## QADAĞANEDİCİ



Qırmızı dairəyəm
İçimdə enli ağ xət.
Əgər girsən bu yola
Çəkəcəksən xəcalət.
Bu tərəfə girişi
Qadağan eləyirəm.
Kim sözümə baxmasa
Qada, qan eləyərəm. (3. 1.)



Qırmızı dairəyəm,
Sıfıra bənzəyirəm.
Bura hərəkət olmaz,
Dayanıb gözləyirəm.
Bir ağıllı sürücü
Məni görüb dayandı.
Sanki başa düşdü ki,
Hərəkət qadağandı. (3. 2.)

# ƏMREDİCİ



Göy dairə içində
Ağ libaslı oxam mən.
Əmrimdən çıxanlarla
Yoxam, yoxam, yoxam mən…
(4. 1. 1.)



Sağa əyilmişəmsə
Sağa hərəkət elə! (4. 1. 2.)



Sola əyilmişəmsə,
Sola hərəkət elə. (4. 1. 3.)
Məni saya salmayan
Bağışlanmayıb hələ.
Əmrimdən çıxanların
Yaxası keçər ələ!

Bax, mən də tərsəm, qağa,
Sözümü qoyma lağa!
Cəza istəmirsənsə,
Ya düz get, ya dön sağa! (4. 1. 4.)





Əgər məni gördünsə,
Ya sola dön, ya düz get.
Sürücü vəsiqəndən
Ya da əlini üz get! (4. 1. 5.)

Göstərilən yoldan öt,
Maneəni soldan öt! (4. 2. 2.)





Sözümdən çıxarlar heç?
Maneəni sağdan keç!
(4. 2. 1.)



İki yol var, özün seç,
Ya soldan, ya sağdan keç!
(4. 1. 6.)



Məni görsən uzaqdan,
Çəkin qoruq-yasaqdan.
Yoldakı maneəni
Ya soldan öt, ya sağdan.
(4. 2. 3)



Düz getmə, ilişərsən,
Çıxarma nağıl, həkət.
Sənə əmr olunubdur
Dairəvi hərəkət. (4. 3.)



# İŞIQFOR

Mənim iki gözüm var,
Səninki niyə üçdü?
Yaşıl gözün parladı,
Maşınlar gəldi keçdi.

Açdın sarı gözünü
Söylədin ki, "hazır ol!"
Qırmızı gözün yandı,
Deməк bağlanıbdı yol.

Maşınların hamısı
Dayanıblar naəlac.
Gözünün üçünü də
Oğulsansa, birdən aç.

- Ay oğlan, aldanmaram,
Tutma məni kələyə.
Elə etsəm, maşınlar
Gələr kəllə-kəlləyə.

# YOLDA

Əyləc basıldı, maşın
Silkələnib dayandı.
Mən Bakıda yatmışdım,
Sumqayıtda oyandım.

# İŞIQFORUN ÜÇ İŞIĞI

Yuxarıda dayanan
Ağsaqqaldı:
-Dur! - dedi.
Aşağıda dayanan
Tez yerindən dur, - dedi.
Özünü alovlara,
Atəşlərə vur, - dedi.
Ortada qalan işıq
Şübhələr içindədi.
Nə dayanın söylədi,
Nə də ki, keçin dedi.



## BALACA SÜRÜCÜ

Bip-bip, bip-bip eləyir
Yenə də kiçik Əkrəm.
Stulu yerə yıxıb,
Deyir: - Maşın sürürəm.

## YOLDAN ÇIX

- Yoldan çıx, maşın gəlir,
Nə durmusan, ay Soltan.
- Niyə mən çıxmalıyam,
Qoy maşın çıxsın yoldan!

## YOLLAR

İnsan düzlərə yol çəkdi,
İnsan dağlara yol çəkdi.
Adamları maqnit kimi
Özünə doğru yol çəkdi.
Yollar ömürdən uzundu,
Yollar arzudan gödəkdi…
Bu yolla bir ovçu gedir,
Boşalıbdır ovcu, gedir.
Bu dünya etibarsızdı,
Yollar qalır, yolçu gedir…



## SÜRÜCÜ NƏĞMƏSİ

Ağlı bir şey kəsən gündən
Hər kəs özünə yol seçir.
Bu uzanıb gedən yollar
Taledən, ömürdən keçir.

Yenə sükan əlimdədi,
Yollar mənim iş yerimdi.
Onlar qismətimə düşən
Ayrılıq, görüş yerimdi.

Hey gedirəm, bir gün başım
Üfüqlərə söykənəcək.
Sanıram ki, yol qurtarsa,
Mənim ömrüm tükənəcək.

Dizlərimə qüvvət verən
Gəzmək, görmək həvəsidi.
Yollardayam, mənim üçün
Yollar vətən əvəzidi…

## YOL VƏ POST

Cığır böyüyüb yol olur,
Gah geniş, gah dardı yollar.
Keçib gedən adamlardan
Qalan yadigardı yollar.

Şütüyüb gedir maşınlar,
Bu daralan yollara bax.
Baxıb, baxıb düşünürəm:
Yol örkəndi, post doğanaq…

## ŞÜŞƏSİLƏN

Maşınımız getdikcə
Yollara baxıram mən,
Sel-suyun içindədi
Dərə-təpə, çöl-bayır.
Bu şıdırğı yağışdan
Narazıdı deyəsən,
Şüşəsilən səhərdən
Hey başını bulayır…



**İndi yurdumuzun şəhərlərinə, kəndlərinə, ən gözəl, səfalı yerlərinə yollar çəkilib. Yollar bizi gözəlliklər diyarına aparanda özümüzü bəxtəvərlər bəxtəvəri sanırıq…**

## BU YOL LƏZƏYƏ GEDİR

Bu yol Ləzəyə gedir,
Üzü quzeyə gedir.
Dağlar verib baş-başa,
Söykək olub daş daşa.

Yamaclarda çiçəklər
Sayrışır ulduz kimi.
Çağlayan çeşmələrin
Suyu sərin, buz kimi.

Hər bulaqdan bir ovuc
Su içməsən, ar olar.
Burda nağıl danışır
Çiçəklərə arılar…

İki dağın üstündə
Şəlalələr üz-üzə.
Dəyişən mənzərələr
Biri birindən gözəl…

Bu yol Ləzəyə gedir,
Üzü quzeyə gedir…

## BU YOL GEDİR MARALGÖLƏ

Bu yol gedir Maralgölə,
Gedirəm ki, maral görəm.
Susayanda enib gələr
Su içməyə maral, gölə.

Qaya üstə gül olarmış,
Dağ başında göl olarmış!
Maralgölü görən kəsin
Ürəyi tel-tel olarmış.

Uşaqlar da, qocalar da
Dözər onun yoxuşuna.
Bir işıqdı, pərvanə tək
Ellər dolanar başına.

Cavanlaşdım, bu dağların
Çiçəyini dərən kimi.
Gözlərimin nuru artdı
Maralgölü görən kimi.

Böyük bacısı Göygöldən
Hündür imiş, aralıymış.
Doğrudan da, Maralgölüm
Bu göllərin maralıymış.

## MAŞIN GEDİR QƏÇRESƏ

Maşın çıxdı Qubadan,
Maşın gedir Qəçrəşə.
Yaşıl bir nağıl kimi
Ömrümə axır meşə.

Saxla maşını, qardaş,
Dəysin yerə ayağım.
Qurum çəməndə bardaş,
Düş sən də ol qonağım.

Çiçəklərin baxışı
Saldı məni kəməndə.
Yağsın bahar yağışı,
İslanım qoy çəməndə.

Yurdumun hər gülünü
Oxşayaram, öpərəm.
Dağların tər gülünü
Gözlərimə təpərəm.

Mən belə istəyirəm,
Özgəsi nə borcuma.
Çiçəklərin ovcundan
Şəbnəm axsın ovcuma.

Ay qız, baxma güllərə
Gözündə qara çeşmək.
Düş yerə avtobusdan,
Qismət olsun sənə də
Çiçəklərlə çimişmək…



# DƏMİR YOLU

Zamanın tələbi ilə dəmir yolları yarandı. Qoşa relslərin üstündə hərəkət edən qatarlar ölkənin bu başından o başına yük, sərnişin daşımağa başladılar.

## QATAR YOLA DÜŞƏNDƏ

Qatar çıxdı vağzaldan,
Dedim: -Uğurlar ola!
Elə bildim şəhərdən
Bir küçə düşdü yola.

Evimizin yanından
Şütüyüb qatar keçir.
Yamyaşıl tarlaları
Doğrayır, qatar biçir...

## QATARA MİNƏN MAŞIN

Uzanır dəmir yolu,
Burda baxırsan hara.
Maşına bax, maşına,
Gedib minib qatara.

Atasıyla bölüşür
Sevinc öz sevincini.
Deyir: -Maşın yorulub,
İndi alır dincini.

## METRO

Axın-axın girirlər
Yer altına adamlar.
Axın-axın çıxırlar
Yer altından adamlar.
Ay aman, bura baxın,
Gör nə qədər adam var!
Təəccüblə söyləyir
Mənə balaca İlkin:
Qarışqa yuvasıdı
Bu metro elə bil ki...

## GECƏ QATARI

Gecə qatar keçəndə
Evimizin yanından
Bilmir ki, nə eləsin
Adam həyəcanından.

Bina sanki vaqondu,
Kupedi mənzilimiz.
Qatarlara qoşulub,
Sanki yol gedirik biz.

## FUNİKULYOR

Mindiyimiz tramvay
Dağa qaldırdı bizi.
Çıxıb Dağüstü parkdan
Seyr elədim dənizi.

Qağayılar baş vurub
Ayna sularda çimir.
Xəzərin yaxasında
Hər qayıq düymə kimi...

## QATAR

Bir gör necə uzunam,
Mən qataram, qataram.
Şəhərləri, kəndləri
Bir-birinə qataram.
Gedəni aparıram,
Qayıdanı qaytaram.

## YERİYƏN PİLLƏKƏN

Çıxdım üstünə
Endi pilləkən,
Gördüm ki, yerin
Altındayam mən.
Çıxdım üstünə,
Qalxdı pilləkən,
Gördüm ki, yerin
Üstündəyəm mən.
Eşq olsun sənə,
Ey metro tikən.
Heç görməmişdim
Belə pilləkən.
Bizi endirir,
Bizi qaldırır.
Özü endirir,
Özü qaldırır.





# SU YOLU

İnsan ağlı, insan zəkası hər şeyə qadirdi. Üzən quşlara, balıqlara baxan ulu babalarımızın könlündə üzmək arzusu baş qaldırdı. Bu arzu qayıqların, gəmilərin yaranmasına səbəb oldu. Su yolu ən sərfəli nəqliyyat yoludur. Bu yolla yüklərin daşınması rahat və ucuzdur...

## DƏNİZ YOLU

Ürəklərdə baş qaldırdı
O üzə keçmək arzusu.
Neçə cür qayıq yaratdı
Sulardan keçmək arzusu.

Dəniz coşdu, dəniz daşdı,
Ağrı oldu, azar oldu.
Dilini bilənlərə yol,
Bilməyənə məzar oldu...

Bağlasa da su yolu,
Sərfəlidi su yolu...

## HAMAR DƏNİZ

Kater üzüb getdikcə
Qabarır suyun üzü.
Elə bil kotan salıb
Şumlayırlar dənizi.

Ancaq dəryanı əkmək
Cəhdi hədərdir, hədər.
Haphamar olur dəniz
Şumlansa da nə qədər...

## DƏNİZDƏN KEÇƏN YOLLAR

Dəniz ipiri bir ayna,
Gəmi yepyekə bir almaz.
Üstündən keçən qayığı
Balıqlar vecinə almaz.

Vurnuxarlar ora-bura,
Yaşayarlar üzə-üzə.
İçində həyat qaynayır,
Suların qoynu möcüzə.

İri-iri gəmilərin
Yolları dənizdən keçər.
Dərindən xəbəri olmaz,
Üzüb elə üzdən keçər...

## KAPİTAN

Gəmi düzəltdim
Bu gün kağızdan,
Balaca gəmim
Üzür hovuzda.
Hey atıb-tutur
Ləpələr onu,
Gözdən qoymayır
Körpələr onu.
Gəmiyə qoydum
Bir qarışqanı,
Kapitan deyə
Çağırdım onu.
Gəmim dəysə də,
Daşa, kapitan,
Qəza olmadı,
Yaşa, kapitan!

## QAYIQ

Qayıq düzəldib,
Buraxdım arxa.
İtdi gözümdən
O, axa-axa.
Yuxarı üzmək
Asandır bəyəm?
Üzü yuxarı
Üzən gəmini
Mən yekələndə
Düzəldəcəyəm.

## QAYIQLAR

Dənizlərin qoynunda
Üzər nəhəng gəmilər.
Suların üstü ilə
Gəzər qəşəng gəmilər.

Hərəsinin yanında
Neçə-neçə qayıq var.
Gəmi sanki babadır,
Nəvələri qayıqlar.



# HAVA YOLU

**Uçmaq, ucalmaq arzusu insanı həmişə düşündürüb. Babalarımız, nənələrimiz göylərdə qanad çalan quşlara qibtə ilə baxıblar. Ürəklərindən keçiriblər ki, kaş biz də quş kimi uça, göylərdə süzə biləydik.**

## HAVA YOLU

Yağış yağıb, sel gəlib,
Yollar-izlər palçıqdı.
Maşınlar batıb qalır,
Körpü isə uçuqdu.

Quşların nə vecinə,
Ya yağış, ya qar olsun.
Çünki hava yolunu
Apara bilmir sel-su…

Əvvəlcə xəyalında uçan xalça arzulayan insan illər keçdikcə bu işin də öhdəsindən gəlib. Beləliklə, təyyarələr, vertalyotlar, kosmik raketlər yaranıb.

## O ELƏ BƏRK UÇUR Kİ…

Göydə təyyarə varmış,
Birdən boylandım səsə.
Uçub üstümdən keçib,
Bilməmişəm nədənsə.

İndi xəbər tuturam,
Baxıram göy üzünə.
O elə bərk uçur ki,
Səsi çatmır özünə…

## TƏYYARƏ MEYDANINDA

Səmanın sinəsində
Görünürdü xal kimi.
Birdən meydana endi
Nəhəng bir qartal kimi.
Adamlar yavaş-yavaş
Yaxın gəldilər ona.
Caynağına almadı,
Tez götürüb qoynuna
Yüzə qədər adamı
Qalxdı göyə təyyarə.
Uçanların dalınca
Əl elədi Səyyarə…



## VERTALYOT

Vertalyota baxın bir,
Caynağında borular.
Elə bil şirə yığıb,
Bal aparır arılar.
-Yaman da söz danışdın,
Boru hara, bal hara?!
Vertalyot yük daşıyır
Maşın çıxmaz dağlara.
-İnsanlar boruları
Uc-uca bağlayacaq.
Onların içi ilə
Bal tək şirin dağ suyu
Axacaq, çağlayacaq…

## DUMAN YOLU

Bu dərədən o dağa
Duman asanca qalxır.
Ancaq özündən sonra
Qalmır bir sapca cığır.

Bu dağın başına bax,
Şişə çəkir buludu.
Bu yolla qalxammarıq,
Bu yol duman yoludu…

## TƏYYARƏDƏ

Quş kimi qalxdı göyə,
uçdu o dağdan, dərədən,
Seyr edib ağ buludu
körpə Nigar pəncərədən
Söylədi: -Bax, atacan!
-Orda nə var ki, qadası?
-Hələ mən görməmişəm
bir belə pambıq tayası.



# SON SÖZ

Dünyada yollar çoxdu. Ancaq təssüf ki, ulu yurd yerlərimizə gedən yollar üzümüzə bağlanıb. Düşmən tapdağı altında qalan torpaqlarımızın gözü igid oğullarımızın, qızlarımızın yoluna dikilib...

## YOL

Dağlara uzanır yol,
Sən səfərə hazır ol!
Dörd yan quldur-qaçaqdı,
Kim qorxmursa, qoçaqdı.
Yeri, qabağa yeri,
Yada vermə bu yeri!
Bu dağ-dərə sənindi,
Ayağa dur sən indi!
Yoxsa güləcək yağı,
Yer alacaq ayağı.

El yolunda ocaq ol,
Yad gözünə bıçaq ol.
Mat-mat baxma yollara,
Yeri, təzə yol ara.
Qəlbində varsa təpər,
Alnından günəş öpər.
Halsızı hala gətir,
Yolsuzu yola gətir.
Öndə qar var, dolu var,
Hər işin öz yolu var...





# KİTABIN İÇİNDƏKİLƏR



ÖN SÖZ .......... 4
CIĞIRLAR .......... 4
İLK MİNİKLƏR .......... 5-6
ARABA. FAYTON .......... 7
TƏKƏRLƏR .......... 7
AVTOMOBİL YOLLARI .......... 8-13
DANIŞAN İŞARƏLƏR .......... 14-18
İŞIQFOR, MAŞINLAR VƏ YOLLAR HAQQINDA ŞEİRLƏR .......... 19-21
DƏMİR YOLU .......... 22
SU YOLU .......... 23
HAVA YOLU .......... 24-25
SON SÖZ .......... 26

GÖYƏRÇİN
№ 8-9 (525-526)

İbtidai sinif şagirdləri və məktəbəqədər azyaşlı uşaqlar üçün aylıq jurnal

1958- ci ildən çıxır

Təsisçi:
Azərbaycan Gənclər İttifaqı

Baş redaktor
Rafiq Yusifoğlu

Redaksiya heyəti:
Hüseyn Abbaszadə
Yusif Hüseynov
Xanımana Əlibəyli
Ağacan Əhmədov
Ənvər Qarayev
Zahid Xəlil
Cahangir Məmmədov
İlyas Tapdıq

Məsul katib
İlqar Mehdiyev

Bədii redaktor
Arif Hüseynov

Dizayner -rəssam
Leyla Salamova

Redaksiyanın ünvanı:
Bakı- AZ 1146,
Mətbuat prospekti,
529- cu məhəllə.
Telefon 439 08 53

Çapa imzalanıb: 03.07.06
Sifariş 2629
Tiraj 2000
Kağız formatı 60/90/1/8
Çap vərəqi 2,5
Hesab-nəşr vərəqi 3,93
Ofset üsulu ilə çap olunub.

Bakı
"Azərbaycan" nəşriyyatının mətbəəsi

Lisenziya № 022328

GÖYƏRÇİN

Qiyməti 60 qəpik
(köhnə qiymətlə 3000 manat)

